# COP29 çərçivəsində "İqlim dəyişikliyinə dayanıqlı kiçik orta bizneslər" mövzusu müzakirə olunub

**COP29 çərçivəsində "İqlim dəyişikliyinə dayanıqlı kiçik və orta bizneslər" mövzusu müzakirə olunub.**




AZƏRTAC xəbər verir ki, tədbirdə COP29-un iqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, ICC-nin Qlobal siyasət üzrə direktoru Andrev Vilson, "Climate KIC"in baş direktoru Kirsten Dunlop, "Climate Group"un baş direktoru Helen Clarkson və digərləri iştirak edib.

Kiçik və orta bizneslərin iqtisadiyyatın əsasını təşkil etdiyini deyən N.Arpadarai, KOB-ların qlobal təchizat zəncirləri və yerli icmalar üçün çox vacib olduğunu bildirib: "KOB-lar qlobal təchizat zəncirləri və yerli icmalar üçün olduqca vacibdir. Xalis sıfra nail olmaq öhdəliyi götürmüş KOB-ların 63 faizinə maraqlı tərəflərdən emissiyaların azaldılması tələbi verilməyib. KOB-lardan 84 faizinə isə heç bir maliyyə stimulu təklif olunmayıb". O, bu il Nyu Yorkda fəaliyyətə başlayandan bəri "Fərqlilik yaradanlar" kampaniyasının 40 milyondan çox KOB ilə əməkdaşlıq edən 90-dan çox işçini bir araya gətirdiyini, bəzilərinin bu tədbirdə iştirak etdiyini diqqətə çatdırıb: "Bəziləri yerli kampaniyaların təşkilatçılarıdır və 100-dən çox ölkədə yerli kiçik və orta bizneslərlə işləyirlər. Kiçik və orta sahibkarlara yaşadığımız iqlim dəyişikliyinin təsirlərinə qarşı davamlı olmağa kömək edirlər".

Yüksəksəviyyəli çempionun sözlərinə görə, kampaniya iştirakçıları dəstəyinin ən çox ehtiyacı olan kiçik bizneslər üçün əhatə dairəsini və mövcudluğunu genişləndirirlər. Daha sonra O.Məmmədov kiçik və orta bizneslərin "yaşıl keçid" üzrə Bakı koalisiyasının önəmindən danışıb. Müzakirələrdə qeyd olunub ki, çoxtərəfli əməkdaşlıqlar sistemli maneələri həll etmək üçün ideal vasitədir. Eyni zamanda iqlim ambisiyalarını və fəaliyyətlərini sürətləndirmək üçün kiçik və orta bizneslərə əlavə dəstək yolları barədə müzakirə aparılıb.

Azərbaycan.- 2024.- 17 noyabr (№ 253).- S.19.